**Azərbaycan Respublikasının**
**Dövlət Şəhərsalma və Arxitektura Komitəsi**

# ƏMR

**№ 32**

Bakı şəhəri 12 fevral 2016-cı il

**"Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsində Apellyasiya Şurasının yaradılması barədə"**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 03 fevral 2016-cı il tarixli 762 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin 09 noyabr 2007-ci il tarixli 647 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə"nin 14.2 bəndini rəhbər tutaraq **əmr edirəm:**

1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsində ictimai əsaslarla fəaliyyət göstərən Apellyasiya Şurası yaradılsın.
2. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Apellyasiya Şurası 7 nəfərdən ibarət müəyyən edilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Apellyasiya Şurasının sədri:**

Dövlətxan Dövlətxanov - sədr müavini

**Apellyasiya Şurasının üzvləri:**

Əmiraslan Həsənov - Dövlət Şəhərsalma nəzarəti şöbəsinin müdir müavini

Fəxri Aydəmir - Şəhərsalma şöbəsinin müdir müavini

Bariz Əzizov - Arxitektura şöbəsinin müdir müavini

Vidadi Eminov - Tikintilərin Dövlət reyestri şöbəsinin müdir müavini

Natiq Mehtiyev - Hüquq və kadr məsələləri şöbəsinin müdir müavini

Sevinc Hacıyeva - Texniki normalar və lisenziya şöbəsinin Texniki normalar sektorunun müdiri

3. Apellyasiya Şurasına daxil olan şikayətlərlə əlaqədar təşkilati tədbirlərin həyata keçirilməsi üçün Komitənin Apellyasiya Şurasının Katibliyi 3 nəfərdən ibarət müəyyən edilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Katibliyin rəhbəri:**

| | |
|---|---|
| Eldar Davıdov | - Şəhərsalma kadastrı şöbəsinin müdir müavini |

**Katibliyin üzvləri:**

| | |
|---|---|
| Elnur Feyzullayev | - Şəhərsalma kadastrı şöbəsinin məsləhətçisi |
| Sevda Məmmədova | - Hüquq və kadr məsələləri şöbəsinin Hüquq sektorunun baş mütəxəssis-böyük inspektoru |

4. Apellyasiya Şurasının Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

5. Beynəlxalq əlaqələr və informasiya şöbəsinə (Ə.Əhmədov) tapşırılsın ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Apellyasiya Şurasının yaradılması barədə əmri və Apellyasiya Şurası haqqında Əsasnaməni Komitənin internet səhifəsində yerləşdirsin.

6. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Sədr** **Abbas Ələsgərov**